**AZƏRBAYCAN RESPUBLİKASI**

---

*Əlyazma hüququnda*

# BEYNƏLXALQ MİQRASİYA SİYASƏTİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ YERİ VƏ ROLU

| | |
|---|---|
| İxtisas: | 5904.01 – Siyasi institutlar və sistemlər |
| Elm sahəsi: | Siyasi elmlər |
| İddiaçı: | **Amid Şirxan oğlu Əliyev** |

fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2024**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: siyasi elmlər doktoru, professor
**Elman Xudam oğlu Nəsirov**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, professor
**Hikmət Baba oğlu Məmmədov**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Kərəm Cahangir oğlu Məmmədov**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Rəşad Əsəd oğlu Sadıqov**

**Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəznində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası.**

Dissertasiya şurasının sədri: akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi Seminarın sədri: siyasi elmlər doktoru, dosent
**Sevil İmamverdi qızı Məmmədova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Beynəlxalq miqrasiyanın elmi tədqiqi müasir dövrdə xüsusi aktuallıq kəsb edir, çünki miqrasiyanın səbəblərini və nəticələrini dərk etməklə hökumətlər daha məqsədyönlü siyasət hazırlaya bilərlər. Miqrasiya, iqtisadi, sosial, siyasi və ekoloji aspektlər də daxil olmaqla, bir çox qarşılıqlı təsir edən amilləri əhatə edir. Beynəlxalq miqrasiya axınlarının səbəbləri əsasən iqtisadi, sosial, siyasi və ekoloji faktorlarla bağlıdır. İnsanlar daha yaxşı iş imkanları, yüksək həyat səviyyəsi və təhsil üçün iqtisadi səbəblərdən köç edir. Sosial səbəblər arasında ailə birləşməsi və daha təhlükəsiz mühit axtarışı önə çıxır. Siyasi faktorlar münaqişələr, təqiblər və insan hüquqlarının pozulması ilə əlaqədardır. Ekoloji səbəblər isə təbii fəlakətlər, iqlim dəyişikliyi və resurs çatışmazlığı ilə bağlıdır ki, bu da insanların yaşamaq üçün daha əlverişli mühitlərə üz tutmasına səbəb olur.

Xüsusilə əhalinin qocaldığı və doğum səviyyəsinin azaldığı ölkələrdə demoqrafik tendensiyaların formalaşmasında miqrantların rolu böyükdür. Onlar işçi qüvvəsini artıraraq sosial rifah sistemlərini gücləndirir və qocalan əhalinin iqtisadi yükünü azaldır. Eyni zamanda, miqrantların öz ölkələrinə pul köçürmələri yoxsulluğun azaldılmasına və iqtisadi inkişafa töhfə verir. Miqrantlar tərəfindən bilik və texnologiyaların ötürülməsi isə həm göndərən, həm də qəbul edən ölkələrin inkişafını stimullaşdırır. Bundan əlavə, miqrasiya əmək bazarındakı boşluqları dolduraraq iqtisadi məhsuldarlığı, rəqabət qabiliyyətini və innovasiyaları gücləndirir.

Bununla yanaşı, beynəlxalq miqrasiyanın mənfi nəticələri bir çox sahəyə təsir edir. Bunlara beyin axını, qeyri-qanuni miqrasiyanın artması, sosial inteqrasiya problemləri və əmək bazarında rəqabətin güclənməsi daxildir. Həmçinin mədəniyyətlərarası gərginlik, cinayətkarlığın artması və milli təhlükəsizliyə təhdidlər də əsas mənfi nəticələrdəndir.

Nümunə olaraq göstərmək mümkündür ki, Avropadakı miqrasiya böhranı, xüsusilə 2015-ci ildə qaçqın axını ilə kəskinləşmiş və Qərbi Avropa ölkələrinin bu məsələyə qərəzli yanaşması ciddi tənqidlərə səbəb olmuşdur. Həmin ölkələr

miqrantlara yardım etməkdə beynəlxalq humanitar standartlara uyğun davranmaq əvəzinə, sərhədləri bağlamaq, miqrantları qeyri-insani şərtlərlə üz-üzə qoymaq və məsuliyyəti daha çox Şərqi Avropa ölkələrinə yükləmək kimi yanaşmaları ilə seçildilər. Qərbi Avropanın siyasi liderləri miqrasiyanın sosial və iqtisadi faydalarını vurğulamaq əvəzinə, miqrantları təhlükə kimi göstərərək daxili siyasi maraqlarını ön planda tutdular. Bu yanaşma miqrantlara qarşı diskriminasiyanı və cəmiyyətlərdə ksenofobiyanı gücləndirdi, həmçinin Avropa İttifaqının həmrəyliyi və humanitar dəyərləri ilə bağlı ciddi suallar doğurdu.

Bu baxımdan, beynəlxalq miqrasiyanın idarə olunması yenilənən dünyanın mühüm bir parçası olan Azərbaycan üçün də böyük əhəmiyyət daşıyır. Azərbaycan Respublikasının beynəlxalq miqrasiya siyasətindəki yeri və rolu bir neçə səbəbə görə aktualdır. Azərbaycan Avropa və Asiyanın kəsişməsində strateji mövqe tutur və onu bu regionlar arasında səyahət edən miqrantlar üçün əhəmiyyətli tranzit ölkə edir. Onun Yaxın Şərq kimi münaqişə zonalarına yaxınlığı da regiondakı miqrasiya axınlarına təsir göstərir.

Ümumiyyətlə, Azərbaycanın miqrasiya tendensiyalarını öyrənmək hökumət üçün ölkənin demoqrafik dəyişiklikləri, əmək bazarı dinamikası və sosial inteqrasiya problemlərini həll etmək baxımından vacibdir. Azərbaycanda miqrasiyanın səbəbləri və nəticələrinin təhlili regionda miqrasiya dinamikasının daha geniş mənada öyrənilməsinə kömək edir. Çünki Azərbaycan miqrantlar, xüsusən qonşu ölkələrdən iş və ya sığınacaq axtaran miqrantlar üçün həm tranzit, həm də təyinat ölkəsi kimi xidmət edir. Beləliklə, Azərbaycanın miqrasiya siyasəti miqrasiya axınlarının idarə olunmasında, sərhəd təhlükəsizliyinin təmin edilməsində və öz ərazisində miqrantların hüquqlarının qorunmasında həlledici rol oynayır.

Unutmaq olmaz ki, miqrasiya pul köçürmələri, əmək bazarında iştirak və bacarıqların ötürülməsi vasitəsilə Azərbaycan iqtisadiyyatına töhfə verir. Miqrasiyanın iqtisadi təsirləri dövlətə beyin axını və ya miqrant işçilərin istismarı kimi potensial mənfi

nəticələrini azaltmaq məqsədilə miqrasiyanın faydalarından istifadə etmək üçün strategiyalar formalaşdırmağa kömək edir.

Beynəlxalq miqrasiyanın idarə edilməsi milli təhlükəsizliyin qorunması, eləcə də insan alveri, qaçaqmalçılıq və terrorizm kimi transmilli təhlükələrin qarşısının alınması üçün vacibdir. Uzun illər erməni təcavüzündən və Qarabağ problemi kimi bir münaqişədən əziyyət çəkən Azərbaycanın miqrasiya siyasəti sərhəd nəzarətini gücləndirmək, qeyri-qanuni miqrasiya ilə mübarizə aparmaq, təhlükəsizlik çağırışlarını effektiv həll etmək üçün qonşu ölkələr və beynəlxalq tərəfdaşlarla əməkdaşlığı gücləndirmək məqsədi daşıyır.

Azərbaycan Respublikasının Prezidenti kimi İlham Əliyev beynəlxalq miqrasiya ilə bağlı ölkənin mövqeyinin və siyasətinin formalaşmasında mühüm rol oynayır. Onun rəhbərliyi ilə Azərbaycan özünü miqrasiya üzrə regional və beynəlxalq dialoqların fəal iştirakçısı kimi göstərmiş, əməkdaşlığı, humanitar yardımı və miqrantların hüquqlarına hörməti vurğulamışdır. Prezident İlham Əliyevin baxışı miqrasiya axınının təhlükəsiz, nizamlı və humanist şəkildə idarə olunmasının, milli təhlükəsizlik məsələləri ilə miqrantların hüquqlarının və rifahının müdafiəsi ilə balanslaşdırılmasının vacibliyini vurğulayır. Onun administrasiyası sərhəd təhlükəsizliyini gücləndirmək, insan alveri və qaçaqmalçılıqla mübarizə, qaçqın və sığınacaq axtaran şəxslərə dəstək göstərmək üçün tədbirlər həyata keçirib. Prezident İlham Əliyev həmçinin ümumi miqrasiya problemlərinin həlli və regional sabitliyin təşviqi üçün qonşu ölkələr, beynəlxalq təşkilatlar və donor agentliklərlə tərəfdaşlıq əlaqələri yaratmışdır.

Onu da qeyd etmək lazımdır ki, Vətən müharibəsində qazandığımız qələbədən sonra Qarabağ və Şərqi Zəngəzurda "Böyük Qayıdış" proqramı çərçivəsində keçmiş qaçqın və məcburi köçkünlərin bir hissəsi artıq məcburi miqrasiyanın təsirindən xilas olaraq öz doğma torpaqlarına qayıdıblar.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə isə, Azərbaycanda miqrasiyanın müxtəlif istiqamətləri və problemlərinə dair əsərlər xüsusilə müstəqillik dövründə artmağa başlamışdır. Belə ki, E.M.Nəsibovun "Miqrasiyanın əsasları. Miqrasiologiya. Miqrasiya

prosesləri. Dünya miqrasiya mərkəzləri" kitabında miqrasiya proseslərinin əsas prinsipləri elmi-nəzəri aspektdən öyrənilmiş, miqrasiya anlayışının konseptual məzmunu təfsilatlı şəkildə araşdırılmışdır. Burada həm də miqrasiologiya fənninin nəzəri əsasları əks olunmuş, miqrasiya proseslərinin strukturu, onların yaranma səbəbləri tədqiqat mövzusu kimi diqqət mərkəzində saxlanmışdır. Bundan əlavə, miqrasiyanın coğrafi-siyasi ölçüləri və dünya miqrasiya mərkəzlərinin meydana gəlməsinin əsasları elmi kontekstdə qiymətləndirilmişdir[1].

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin mütəxəssisləri tərəfindən hazırlanan "Qlobal miqrasiya böhranı: beynəlxalq münasibətlər və Qərb siyasəti yeni tarixi dönüş ərəfəsində" adlı tədqiqat əsərində isə hal-hazırda dünyada milyonlarla insanı əhatə edən humanitar miqrasiya böhranı və onun yaranmasına səbəb olan amillər geniş şəkildə analiz olunmuşdur. Miqrasiya proseslərinin araşdırılmasında siyasi səbəblər və böhranın geosiyasi əsaslarına xüsusi diqqət yetirilmiş, miqrasiya böhranının müasir beynəlxalq sistem üçün ciddi bir sınaq olduğu qeyd edilmişdir[2].

Sosial Tədqiqatlar Mərkəzinin sosioloji sorğu əsasında hazırladığı "Azərbaycanda daxili miqrasiya və urbanizasiyanın sosial aspektləri" adlı tədqiqat işində (müəlliflər E.Qəribova, V.Rüstəmova) Azərbaycanda miqrasiya proseslərinin sosial-iqtisadi, demoqrafik aspektləri[3], N.Məmmədovun əsərlərində miqrasiya böhranı və Avropanın aparıcı ölkələrinin miqrasiya siyasəti[4], E.Mehrəliyev və

---

[1] Nəsibov E. Miqrasiyanın əsasları. Miqrasiologiya. Miqrasiya prosesləri. Dünya miqrasiya mərkəzləri. I Kitab. - Bakı: Elm və təhsil, 2014. -240 s.

[2] Qlobal miqrasiya böhranı: beynəlxalq münasibətlər və Qərb siyasəti yeni tarixi dönüş ərəfəsində. /Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin nəşri/ - Bakı: Costco Company, 2018. - 308 s.

[3] Qəribova, E., Rüstəmova V. Azərbaycanda daxili miqrasiya və urbanizasiyanın sosial aspektləri. /Sosial Tədqiqatlar Mərkəzinin analitik hesabatı// "Azərbaycan barometri" jurnalı. № 2(6). – 66 s., s.65.

[4] Məmmədov, N. Bu gün miqrasiya böhranı Avropanın aparıcı ölkələrinin siyasətinin nəticəsidir /08-09-2015/ - http:// www.yeniazerbaycan.com/ SonXeber_e10124_az.html.

H.Rəcəblinin əsərlərində isə daha çox miqrasiyanın demoqrafik vəziyyətə təsiri məsələləri araşdırılmışdır[5].

A.Əliyevin miqrasiya ilə bağlı yazdığı məqalələrində əsasən müasir beynəlxalq hüquqda insan haqları, əhali və miqrasiya problemləri, həmçinin Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyi ətraflı təhlil edilmişdir[6].

Ə.A.Şirinov tərəfindən "Miqrasiya və sığınacaq məsələləri üzrə terminlərin izahlı lüğəti" hazırlanmışdır[7].

Ayrıca olaraq onu da qeyd edək ki, BMqT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi 2014-cü ildə "Sığınacaq, sərhəd və immiqrasiya məsələlərinə dair Avropa Qanunvericiliyi üzrə vəsait" nəşr etmişdir. Bu vəsaitin mətninə dair müəllif hüquqları Fundamental Hüquqlar üzrə Avropa İttifaqı Agentliyinə və Avropa Şurasına aiddir. Vəsaitin ikinci nəşri 2013-cü ilin yayında dərc edilmiş Avropa İttifaqının sığınacaq məsələləri üzrə qanunvericiliyinə edilən dəyişiklikləri özündə əks etdirir. Bu vəsait sığınacaq, sərhəd və immiqrasiya məsələləri ilə əlaqədar müvafiq Avropa standartları haqqında ümumi bir təsəvvür yaratmaq məqsədi daşıyır[8].

Bundan başqa, müstəqillik illərində Azərbaycanda miqrasiya mövzusunda bir neçə dissertasiya işi də yazılmışdır. Məsələn, F.Abdullayevin elmlər doktoru dissertasiyasında beynəlxalq

---

5 Mehrəliyev, E. Azərbaycanda əhalinin miqrasiyası və demoqrafik proses. // "İqtisadiyyat və həyat" jurnalı, -1991. №5; Rəcəbli, H. Müstəqillik dövründə respublikada demoqrafik vəziyyət. // "Odlar yurdu" Universitetinin elmi əsərləri, -2006. № 17. - 310 s.

6 Əliyev, A. Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyi. // "Strateji təhlil" jurnalı, -2014. №4. c.83-95.

7 Şirinov, Ə.A. Miqrasiya və sığınacaq məsələləri üzrə terminlərin izahlı lüğəti. – Bakı, 2008. -161 s.

8 Sığınacaq, Sərhəd və İmmiqrasiya Məsələlərinə dair Avropa Qanunvericiliyi üzrə Vəsait. / Fundamental Hüquqlar üzrə Avropa İttifaqı Agentliyi, 2014; Avropa Şurası/Avropa İnsan Hüquqları Məhkəməsi, -2014 - https://www.echr.coe.int/Documents/Handbook_asylum_AZE.pdf.

münasibətlər və miqrasiya proseslərinin geosiyasi[9], M.Sərdarovun dissertasiyasında müasir dövrdə Azərbaycanda miqrasiya proseslərinin siyasi[10], A.F.Aslanovanın dissertasiyasında isə iqtisadi-demoqrafik aspektləri araşdırılmışdır[11].

Yuxarıdakı mənbələrin bir çox müsbət tərəfləri olsa da, bir ümumi çatışmazlığı var ki, bu mənbələrin heç birində Azərbaycan Respublikasının miqrasiya siyasəti ilə beynəlxalq miqrasiya siyasəti paralel şəkildə eyni kontektsdə öyrənilməyib. Xüsusilə də 2020-ci ildən sonrakı dövrdə beynəlxalq miqrasiya proseslərinin ölkəmizə təsirləri yetəri qədər tədqiq edilməmişdir. Başqa sözlə, yuxarıda verilmiş ədəbiyyat nəzərdən keçirilərkən, miqrasiya məsələlərinin əsasən müxtəlif aspektlərdən — hüquqi, coğrafi-siyasi, sosial-iqtisadi və demoqrafik perspektivlərdən araşdırıldığı görünür. Lakin müəyyən boşluqlar nəzərə çarpır. Belə ki, Azərbaycanda hiper-urbanizasiya problemi ilə miqrasiya məsələsinin kəsişmə nöqtəsi kimi detallı təhlil hələ kifayət qədər aparılmayıb. Daxili miqrasiyanın şəhər resurslarına təsiri və bu prosesin beynəlxalq miqrasiyaya necə təsir etdiyi və ondan necə təsirləndiyi daha dərindən araşdırılmalıdır. Bundan əlavə, əvvəlki tədqiqatlar daha çox beynəlxalq miqrasiyanın humanitar və hüquqi aspektlərinə diqqət yetirmiş, lakin beynəlxalq miqrasiya axınlarının daxili miqrasiyanı və urbanizasiya proseslərini necə formalaşdırdığına dair ətraflı tədqiqat aparılmamışdır. Eyni zamanda, Azərbaycan miqrasiya siyasətinin beynəlxalq standartlara uyğunlaşdırılmasının ölkədəki daxili miqrasiya dinamikasına təsiri məsələsi də ədəbiyyatda geniş yer almamışdır. Bu boşluqlar mövcud tədqiqatda geniş araşdırılaraq, beynəlxalq və daxili miqrasiya

---

[9] Abdullayev, F. Beynəlxalq münasibətlər və miqrasiya prosesləri: geosiyasi aspektlər. Siyasi elmlər üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. -Bakı, -2016. -273 s.

[10] Sərdarov, M. Müasir dövrdə Azərbaycanda miqrasiya prosesləri: siyasi aspekt. Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. -Bakı, -2006.

[11] Aslanova, A.F. Azərbaycanda miqrasiya proseslərinin iqtisadi-demoqrafik aspektləri. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. - Bakı, -2017. -148 s.

arasındakı qarşılıqlı əlaqəni dərinləşdirmək məqsədilə yeni elmi yanaşmalar təqdim edilə bilər.

Qərb və MDB məkanında dəyişən geosiyasi şəraitdən asılı olaraq beynəlxalq münasibətlər sistemində baş verən yeni reallıq, o cümlədən miqrasiya və onun xüsusiyyətlərinin təhlili sahəsində də çoxsaylı ədəbiyyat mövcuddur. Qərb müəlliflərindən Z.Bauman, C.Fauks, E.G.Revanşteyn, R.V.Kox, F.Bernat, T.Neyl, D.Fernandes, E.Ketz, O.Stark, R.Kupməns, J.Laubi, G.Louşer, D.Massi, E.Moravska, K.Nyulənd, M.Todaro, L.Maruzko, M.Pyore, N.Tomas, M.Veynerin əsərlərində beynəlxalq miqrasiyanın idarəolunması: mexanizmlər, proseslər və təşkilatlar, beynəlxalq miqrasiya nəzəriyyələri, daxili təhlükəsizlik və miqrasiya, qlobal miqrasiya böhranı, qanunsuz miqrasiya və ABŞ-da miqrasiya islahatları, miqrant mobilliyi geosiyasəti, əmək miqrantları və sənaye cəmiyyəti, imiqrasiya tarixi, immiqrasiyanın sosial və iqtisadi mənşəyi, beynəlxalq əməkdaşlıq və qlobal qaçqın böhranı, multikulturalizm və miqrasiya, assimilyasiya və multikulturalizmin böhranı, immiqrasiya və cinayət və s. mövzular ətraflı təhlil edilmişdir[12].

---

[12] Bauman, Z. Globalization: The Human Consequences. -New York: Columbia University Press, -1998. -196 p.; Bernat, F. Immigration and Crime. /28 August 2019/ - https://oxfordre.com/criminology/view/10.1093/acrefore/9780190264079.001.0001/acrefore-9780190264079-e-93; Cox, Robert W. Social Forces, States and World Orders: Beyond International Relations Theory. // Millennium: Journal of International Studies, 10 (2): -1981. p.126–55; Deepa, Fernandes. Targeted. Homeland Security and the Business of Immigration. -New York: Seven Stories press, -2007. -pp. 203-206 ; Faux, Jeff. How US Foreign Policy Helped Create the Immigration Crisis. /18 October, 2017/ - https://www.thenation.com/article/how-us-foreign-policy-helped-create-the-immigration-crisis/; Jansen, Y. Secularism, Assimilation and the Crisis of Multiculturalism. Amsterdam University Press, -2013. -345 p.; Katz, E. and Stark, O. Labor Migration and Risk Aversion in Less Developed Countries. //Journal of Labor Economics, -1986. vol. 4. issue 1. pp. 134-49; Koopmans, R. (2013). Multiculturalism and immigration: A contested field in cross-national comparison. Annual Review of Sociology, 39. pp.147–169; Lauby, J. and Stark, O. Individual Migration as a Family Strategy: Young Women in the Philippines. // MPRA Paper from University Library of Munich, Germany.- https://EconPapers.repec.org/RePEc:pra:mprapa:89566; Loescher, G. Beyond.

Rus alimlərindən E.P.Bajanov, V.P.Belenki, B.Vattanberq, C.K.Bondıreva, D.V.Kolesov, İ.Vallerstayn, İ.B.İvaxnyuk, L.Karaçurina, O.Kulbaçevskaya, Q.K.Nikolskaya, V.D.Samaylov, A.A.Filippenko, T.N.Yudina və başqalarının əsərlərində isə qlobal təhlükəsizlik və "yumşaq güc", miqrasiya münaqişələrin indikatoru kimi, məcburi miqrasiya: inteqrasiya və qayıdış, miqrasiya bumeranqı, Avropada miqrasiya prosesləri, ABŞ və Almaniyanın miqrasiya siyasəti və s. mövzular araşdırılmışdır[13].

Türkiyə alimlərindən Z.Aksoy, E.Akyüz, U.Alkan, E.Develi, F.Güllüpınar, U.Kılınç, M.Kiçik və başqa tədqiqatçıların əsərlərində XXI əsrdə miqrasiya fenomeni, Avropada rifah dövləti və miqrasiya əlaqələri: rifah şovinizmi nümunəsində, beynəlxalq miqrasiya və mədəniyyətlərarası əlaqə, uşaqların təhsil hüququ Uşaq Hüquqları Konvensiyasının əsas prinsipləri işığında, beynəlxalq miqrasiya və qaçqın probleminin həllində dövlət idarəçiliyinin rolu, miqrasiya və təhlükəsizlik problemi, xarici immiqrasiya siyasəti, beynəlxalq münasibətlərdə miqrasiya: faktlar, aktorlar və siyasətlər, Türkiyədəki təhlükəsizliyə, azadlığa və suriyalı qaçqınlara kritik yanaşmalar və s.

---

Charity: International Cooperation and the Global Refugee Crisis. -New York: Oxford University Press, -1993 and others.

[13] Бажанов, Е. П. Актуальные проблемы международных отношений: в 3-х томах. -М.: Научная книга, -2001–2002*;* Беленкий, В.Р. Потенциальные реэмигранты России. // Социологические исследования, -1991. №4; Бондырева, С.К., Колесов, Д.В. Миграция: сущность и явление [учеб.-метод. пособие] /М-во образования и науки Рос. Федерации, Рос. акад. образования, Моск. психол.-соц. ин-т. - 2-е изд., стер. - Москва: Издательство Московского психолого-социального института; -Воронеж: МОДЭК, -2007. -294с.; Валлерстайн, И. Анализ мировых систем и ситуация в современном мире /пер. с англ. -СПб., 2001; Ваттенберг, Б. Новая демография: как депопуляция определяет будущее. - Москва: Демоскоп, -2003. -206с.; Витковская, Г.С. Вынужденная миграция: проблемы и перспективы. -М.: Гендальф, -1993. -171с. Восток/Запад: региональные подсистемы международных отношений и проблемы безопасности /Под ред. А. Д. Воскресенского. М: РОССПЭН, -2002 и др.

mövzulara toxunulmuş, araşdırılan mövzu ilə əlaqəli bəzi dəyərləndirmələr aparılmışdır[14].

Mövzu ilə bağlı miqrasiya sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların son illər çap edilmiş hesabatları bu istiqamətdə əsas tendensiyaları əhatə etməklə həm də statistik xarakter daşıyır. Məsələn, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının illik olaraq hazırladığı hesabatlarda qaçqınlar, geri dönənlər, məcburi köçkünlər, vətəndaşlığı olmayan şəxslər və digər narahatlıq keçirən on milyonlarla insanın həyatını qorumaq və yaxşılaşdırmaq üçün bu qurum tərəfindən illlər üzrə görülən işlər təqdim edilir. Məsələn, 2022-ci il üzrə hazırlanmış hesabatda qeyd olunur ki, təqiblər, münaqişələr, zorakılıqlar, insan hüquqlarının pozulması və ictimai asayişi ciddi şəkildə pozan hadisələr nəticəsində məcburi köçkün düşənlərin sayı 2022-ci ildə 21 faiz artaraq ilin sonuna təqribən 108,4 milyon nəfər təşkil edib. Bu rəqəm qaçqınları (BMT QAK mandatı ilə əhatə olunmayan qaçqınlar da daxil olmaqla), sığınacaq axtaranları, məcburi köçkünləri və beynəlxalq yardıma ehtiyacı olan digər insanları əhatə edir. Nəticədə dünya üzrə hər 74 nəfərdən 1-dən çoxu məcburi köçkün vəziyyətində qalıb, onların demək olar ki, 90 faizi aşağı və orta gəlirli ölkələrdədir.

---

[14] Aksoy, Z. (2002). Uluslararası Göç ve Kültürlerarası İletişim. // Uluslararası Sosyal Araştırmalar Dergisi, 5(20), 292-303; Akyüz, E. (2001). Çocuk Hakları Sözleşmesinin Temel İlkeleri Işığında Çocuğun Eğitim Hakkı.- https://dhgm.meb.gov.tr/yayimlar/ dergiler/Milli_Egitim _Dergisi/151/akyuz.htm, (04.10.2016); Alkan, U. (2015). Avrupa'da Refah Devleti ve Göç İlişkisi: Refah Şovenizmi Örneği. Ankara Üniversitesi SBF Dergisi, 70 (3), 751-768; Develi, E.S. 21. Yüzyilda göç olgusu: uluslararasi göç teorilerinin ekonomi politiği. Süleyman Demirel Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi Y.2017, C.22, Göç Özel Sayısı, s.1343-1353.- https://dergipark.org.tr/en/download/article-file/1014078; Güllüpınar, F. Göç olgusunun ekonomi-politiği ve uluslararası göç kuramları üzerine bir değerlendirme. Yalova Sosyal Bilimler Dergisi, Sayı: 4 /Nisan 2012 - Eylül 2012. - https://dergipark.org.tr/en/download/article-file/800901; Kılınç, U. İnsan hakları ve mülteci hukuku ışığında göç ve yerel yönetimler. /Editörler İpek Şen, Gül Tuçaltan, -Ankara. -2019. -86s.; Küçük, M.N. Göç-Güvenlik Bağlantısını Yeniden Düşünmek: Eleştirel Güvenlik Yaklaşımları, Özgürleşme ve Türkiye'deki Suriyeli Mülteciler. Uluslararası İlişkiler / International Relations. Vol. 18, No. 69 (2021), pp. 3-28 ve başkaları.

2021-ci ilin sonu ilə müqayisədə 19 milyon artım deməkdir ki, bu da Ekvador, Niderland və ya Somalinin əhalisindən çoxdur. Bu həm də BMT QAK-ın məcburi köçkünlərlə bağlı statistikasına görə, illər arasında ən böyük artımdır. Artımın yarısından çoxu 2022-ci il ərzində qaçmağa məcbur edilmiş rekord sayda qaçqın, sığınacaq axtaran və beynəlxalq müdafiəyə ehtiyacı olan digər insanların hesabına baş verib. 2023-cü ilin ilk beş ayı ərzində məcburi köçkünlük artmaqda davam edib və BMT QAK-ın təxminlərinə görə, hesabat hazırlanarkən, 2023-cü ilin may ayında qlobal rəqəm 110 milyon nəfəri keçəcək[15]. Buna, heç şübhəsiz, Rusiya-Ukrayna müharibəsinin və Qəzza bölgəsində baş verən hadisələrin acı nəticələri də öz təsirini göstərəcək.

BMT-nin İqtisadi və Sosial Məsələlər Departamentinin "Beynəlxalq miqrasiya - 2019" adlı hesabatında bölgələr və ölkələrə görə miqrasiya səviyyələri və meyilləri, qaçqınlar və sığınacaq axtaranlar, qlobal tendensiyalar (1950-2020), beynəlxalq miqrasiyanın əhalinin yaş qruplarına təsiri, beynəlxalq miqrasiya siyasətləri, dövlətlərin immiqrasiya, mühacirət və geri dönüşlə bağlı siyasətləri və proqramları, miqrant hüquqları və inteqrasiya ilə bağlı siyasətlər, miqrasiya və inkişafla bağlı tədbirlər, beynəlxalq miqrasiya üçün hüquqi və normativ çərçivənin müəyyənləşdirilməsi, qaçqınlar, gəlmə işçilər, qaçaqçılıq və insan alveri, beynəlxalq miqrasiya və davamlı inkişaf üçün 2030 gündəliyi, miqrasiya və qaçqınlarla bağlı qlobal sazişlər və s. məsələlər ətraflı aradırılmış, statistik məlumatlar verilmişdir[16].

Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) "Qlobal miqrasiya göstəriciləri-2018" hesabatında 2018-ci ilin əsas trendləri, əmək miqrasiyası, tələbə mobilliyi, pul köçürmələri, məcburi köç,

---

[15] Global trends. Forced Displacement in 2022. United Nations High Commissioner for Refugees. – https://www.unhcr.org/global-trends-report-2022

[16] United Nations, Department of Economic and Social Affairs, Population Division (2019). International Migration 2019: Report (ST/ESA/SER.A/438). - New York, -2019. -71p. – https://www.un.org/en/development/desa/population/migration/publications/migrationreport/docs/InternationalMigration2019_Report.pdf;

yerdəyişmə və köçürmə, itkin düşmüş miqrantlar, insan alveri və müasir köləlik, miqrant qaçaqmalçılığı, məcburi və könüllü geriqayıdış, uşaqların və qadınların miqrasiyası, miqrasiya və ətraf mühit, miqrasiya idarəçiliyi və s. məsələlər təhlil edilmişdir[17].

BMqT-nin "COVID-19 pandemiyasının qısa analitik təhlili" hesabatında sürətlə dəyişən bir şəraitdə pandemiyanın dünyada miqrasiya və miqrantlara, həmçinin məcburi köçkünlərə təsiri, miqrantların müvəqqəti saxlama mərkəzlərində yerləşdirilməsi təcrübəsi, qlobal miqrasiya idarəçiliyi, qanunsuz status, qorunma və qaçaqmalçılıq, miqrasiyanın sosial-iqtisadi nəticələri, miqrantlar və dünya ərzaq təchizatı, miqrasiyanın uşaqlara və gənclərə təsiri, insan alveri, beynəlxalq pul köçürmələri, ksenofobiya və irqçiliklə mübarizə, ekoloji miqrasiya və əhalinin yerdəyişməsi, miqrantların sosial müdafiəsi, beynəlxalq tələbə miqrasiyası, miqrasiyanın turizmə təsiri, çətin vəziyyətdə olan miqrantlara və səyahət edənlərə göstərilən konsulluq və digər yardımlar və s. mövzular ətraflı araşdırılmışdır[18].

BMqT-nin "2020-ci ildə dünyada miqrasiya" adlı hesabatında isə ilk növbədə son miqrasiya prosesləri, problemlər və çağırışlar haqqında məlumat verilir, qlobal miqrasiya idarəçiliyində son inkişaflar nəzərdən keçirilir[19].

BMqT hazırladığı "Dünya miqrasiyası hesabatı - 2022"-də miqrasiya və miqrantlar, miqrasiya və transmilli əlaqə, miqrant səyahətlərini mühacirlərin baxış bucağından anlamaq, mediada

---

[17] Global Mıgratıon Indıcators 2018. /Publisher: Global Migration Data Analysis Centre (GMDAC) International Organization for Migration. Berlin, Germany. -63p.https://publications.iom.int/system/files/pdf/global_migration_indicators_2018.pdf

[18] Краткие аналитические обзоры COVID-19. Последние исследования, сведения и анализ в области влияния COVID-19 на миграцию и мигрантов в быстро меняющихся условиях. /Отдел миграционных исследований Международная организация по миграции. -155с.

[19] Доклад о миграции в мире 2020. / Международная организация по миграции. Geneva, Switzerland, ISBN 978-92-9068-880-8 (PDF) -212 с. - https://publications.iom. int/system/files /pdf/final-wmr_2020-ru.pdf

miqrantlar və miqrasiya haqqında məlumatlar, miqrasiya, şiddətli ekstremizm və sosial təcrid və s. məsələlər öz əksini tapmışdır[20].

Beləliklə, mövzuya dair yazılmış ədəbiyyat və mənbələrdən də göründüyü kimi, beynəlxalq miqrasiya siyasətində Azərbaycanın yeri və rolu ayrıca tədqiqat obyekti kimi işlənməmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Bu tədqiqatın obyekti beynəlxalq miqrasiya siyasətində Azərbaycan Respublikasının mövqeyidir. Tədqiqatın predmeti isə Azərbaycan Respublikasının miqrasiya siyasətinin beynəlxalq miqrasiya siyasətinə uyğunlaşdırılması üçün yaradılmış hüquqi-normativ bazanın təhlili, bu siyasətin milli təhlükəsizlik kontekstindəki əhəmiyyəti və dinamik beynəlxalq miqrasiya proseslərində ölkənin rolu və fəaliyyətini araşdırmaqdan ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi beynəlxalq miqrasiya siyasətində Azərbaycan respublikasının yeri və rolunu tədqiq etmək, dövlətimizin həyata keçirdiyi tədbirləri təhlil etməkdir. Bu baxımdan, tədqiqatın aşağıdakı vəzifələri mövcuddur:

– Miqrasiya anlayışına konseptual və nəzəri-metodoloji yanaşmaları ümumiləşdirmək;

– Beynəlxalq miqrasiya siyasətinin mahiyyəti və xarakteristikasını açmaq;

– Beynəlxalq miqrasiya siyasətinin aktorları və onların arasındakı qarşılıqlı əlaqənin təhlilini vermək;

– Dünyada müharibə ocaqları və qaçqın problemi arasındakı əlaqəni üzə çıxarmaq;

– Ekoloji problemlərin beynəlxalq miqrasiya proseslərinə təsirini öyrənmək;

– Regional miqrasiya proseslərinin Cənubi Qafqaz regionuna təsirlərini tədqiq etmək;

---

[20] World Migration Report 2022. / McAuliffe, M. and A. Triandafyllidou (eds.), 2021. World Migration Report 2022. International Organization for Migration (IOM), Geneva, Switzerland. – 524p. -https://publications.iom.int/books/world-migration-report-2022

– Azərbaycan Respublikasında miqrasiya siyasətinin formalaşmasını şərtləndirən amilləri təhlil etmək;

– Azərbaycan Respublikasının miqrasiya siyasətinin hüquqi-normativ bazasını qiymətləndirmək;

– Beynəlxalq miqrasiya çərçivəsində Azərbaycan Respublikasının siyasətini milli təhlükəsizlik kontekstində öyrənmək;

– Beynəlxalq miqrasiya proseslərinin Azərbaycana təsirlərini təhlil etmək.

**İşin tədqiqat metodları.** Tədqiqatda statistik analiz metoduna müraciət edilmişdir. İşdə əlavə olaraq ümumi və xüsusi tədqiqat metodları – nəzəri nəticələrin ümumiləşdirilməsi, sosial proseslərin modelləşdirilməsi və formallaşdırılması yanaşmaları, müşahidə, təhlil, sintez, induksiya, deduksiya və s. metodlar tətbiq olunmuşdur. Tədqiqatda ədəbiyyat icmalı metodundan da istifadə edilmişdir. Miqrasiya mövzusu və beynəlxalq miqrasiya prosesləri üzrə nəzəri mənbələr, eləcə də beynəlxalq təşkilatların təqdim etdiyi empirik hesabatların nəzərdən keçirilməsi işin əsas nəzəri təməlini təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat nəticəsində aşağıdakı müddəalar müdafiəyə çıxarılır:

– Son illərdə dünyadakı miqrasiya proseslərinin əsas səbəbləri müharibə ocaqlarının çoxalması və ekoloji problemlərin ciddiləşməsidir;

– 44 günlük Vətən müharibəsi Cənubi Qafqazda miqrasiya proseslərinin intensivləşməsinə səbəb olmuşdur;

– Rusiya-Ukrayna müharibəsinin Cənubi Qafqaz ölkələrinə, o cümlədən Azərbaycan Respublikasına miqrasiya axınlarının çoxalmasında böyük təsiri olmuşdur;

– Qarabağ və Şərqi Zəngəzur bölgələrinə qayıdışı nəzərdə tutan "Böyük Qayıdış" proqramı repatriasiya hadisəsi olaraq böyük regional miqrasiya prosesidir;

– Son illərdə Azərbaycandan xarici ölkələrə təhsil miqrasiyası yüksək səviyyədə artmışdır. Bu baxımdan, Türkiyə Respublikası birinci yerdə dayanır;

– Azərbaycan Respublikasında hiper-urbanizasiya kimi daxili miqrasiya problemi mövcuddur və Bakı bu problemdən ən çox əziyyət çəkən şəhərdir; bu vəziyyət həmçinin beynəlxalq miqrasiyanın təsiri altında daha da dərinləşə bilər, çünki xaricdən gələn və ölkə daxilində yerdəyişmə edən əhali axını şəhər resurslarına olan təzyiqi artırır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat aşağıdakı əsas elmi yeniliklərə malikdir:

– Tədqiqatda ilk dəfə olaraq, 2020-ci ildən sonra beynəlxalq miqrasiya prosesləri çərçivəsində Azərbaycan Respublikasının miqrasiya siyasəti təhlil edilmişdir;

– Əvvəlki tədqiqatlardan fərqli olaraq, tədqiqatda "Böyük Qayıdış" proqramı regional miqrasiya prosesi olaraq qiymətləndirilmişdir;

– Azərbaycan Respublikasında hiper-urbanizasiya problemi ilk dəfə xüsusi miqrasiya məsələsi olaraq müəyyən edilmişdir;

– Tədqiqatda Bakının hiper-urbanizasiya probleminin beynəlxalq miqrasiya ilə qarşılıqlı təsir və inteqrasiyası çərçivəsində ölkənin şəhər resurslarına və sosial infrastrukturuna təsiri aşkarlanmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti problemə yeni elmi-metodoloji baxışın tətbiqində və istifadə olunan mənbələrin aktuallığında öz əksini tapır. Dissertasiyada irəli sürülən nəticələrdən Azərbaycanda beynəlxalq münasibətlər, qlobal miqrasiya və geosiyasət məsələlərinin araşdırılmasında geniş şəkildə yararlanmaq mümkündür. Tədqiqat materialları, həmçinin, müvafiq sahələrdə elmi-metodiki çalışmaların həyata keçirilməsində, eləcə də ali təhsil ocaqlarında dərs proqramlarının tərtib və tədrisində istifadə oluna bilər.

Araşdırma nəticəsində əldə olunan məlumatlar dövlətin daxili və xarici siyasətində analitik təhlillərin hazırlanmasında, habelə vətəndaşların miqrasiya mövzusunda məlumatlandırılmasında faydalı mənbə rolunu oynaya bilər. Eyni zamanda, tədqiqatın nəticələri ölkənin ali təhsil müəssisələrində beynəlxalq münasibətlər, geosiyasət, miqrasiya, siyasi coğrafiya, fəlsəfə və politologiya kimi

fənlərin tədrisində, metodik materialların hazırlanmasında və elmi-tədqiqat işlərində tətbiq oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin elmi seminarlarda, beynəlxalq və ümumrespublika konfranslarındakı çıxışlarında təqdim edilmişdir. Dissertasiyanın əsas məzmunu müəllifin tədqiq edilən problem üzrə 2-si xaricdə olmaqla çap etdirdiyi 10 elmi məqaləsində öz əksini tapmışdır.

**Tədqiqatın struktur bölmələri göstərilməklə ümumi həcmi.** Dissertasiya işi girişdən, üç fəsili əhatə edən doqquz paraqrafdan, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ədəbiyyat siyahısı istisna olmaqla, ümumi həcmi 247996 işarədən ibarətdir. Tədqiqat işinin struktur bölmələrinin ayrılıqda həcmi aşağıdakı kimidir:

- Titul səhifəsi –385 işarə;
- Mündəricat –2271 işarə;
- Giriş –20769 işarə;
- Dissertasiya işinin əsas məzmunu – 215399 işarə, o cümlədən birinci fəsil 65023 işarə, ikinci fəsil 82246 işarə, üçüncü fəsil 68130 işarə;
- Nəticə və təkliflər – 9333 işarə.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Tədqiqatın "**Giriş**" hissəsində dissertasiya işinin mövzusunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti və predmeti, eyni zmanada məqsəd və vəzifələri müəyyənləşdirilmiş, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti müəyyən edilmiş, müdafiəyə çıxarılan müddəalar verilmiş, işin strukturu və həcmi qısa şəkildə göstərilmişdir.

"**Beynəlxalq miqrasiya siyasəti anlayışı, formalaşması və inkişafının sistemli təhlili**" adlanan I fəsildə beynəlxalq miqrasiya siyasətinin əsasları, onun formalaşma prosesləri və inkişaf

mərhələləri tədqiq edilmişdir. Fəslin I paraqrafı "**Miqrasiya anlayışına konseptual və nəzəri-metodoloji yanaşmalar**" adlanır. Bu paraqrafda miqrasiya anlayışına konseptual və nəzəri-metodoloji yanaşmalar araşdırılır. İlk olaraq, miqrasiyanın tarix boyunca müxtəlif ictimai-siyasi formasiyaların təşəkkülündəki rolu vurğulanır. Miqrasiyanın təkcə əhalinin fiziki hərəkətliliyi ilə məhdudlaşmayıb, həm də müxtəlif mədəni və sosial əlaqələrin formalaşmasına təkan verdiyi göstərilir. İbtidai dövrlərdə mədəni əlaqələrin qurulmasından müasir dövrdə iqtisadi və siyasi əlaqələrin yaranmasına qədər miqrasiyanın cəmiyyətin inkişafında mühüm rol oynadığı qeyd olunur.

Paraqrafda "miqrasiya" anlayışının etimologiyası və tərifləri də ətraflı şəkildə izah olunur. Bu anlayış latın dilindən "yerdəyişmək" mənasında gəlir və müxtəlif səbəblərdən insanların bir yerdən digər yerə köç etməsi prosesini əhatə edir. Miqrasiya tərifləri arasında insanlar arasındakı sosial əlaqələrin, iqtisadi ehtiyacların və coğrafi dəyişikliklərin rolu vurğulanır, və bu prosesin etnik tərkibin formalaşmasında mühüm təsir etdiyi qeyd edilir.

Miqrasiyanın növləri, məsələn, ölkədaxili və ölkələrarası miqrasiya, daimi və müvəqqəti miqrasiya, məcburi və sərbəst miqrasiya kimi formalar geniş şəkildə izah edilir. Həmçinin, məcburi miqrasiyanın tarix boyunca dövlətlərin yaranmasında və Vestfaliya sistemi kimi siyasi hadisələrin təsirində necə rol oynadığı təhlil olunur. Fərdi və kütləvi miqrasiya arasındakı fərqlərə də toxunulur, burada kütləvi miqrasiyanın adətən etnik xarakter daşıdığı bildirilir.

Paraqrafda müxtəlif miqrasiya nəzəriyyələri, məsələn, Ravenştaynın miqrasiya qanunları, Neoklassik İqtisadiyyat Nəzəriyyəsi, Miqrasiya üzrə Yeni İqtisadiyyat Nəzəriyyəsi, İkili Əmək Bazarı Nəzəriyyəsi və Dünya Sistemləri Nəzəriyyəsi təqdim olunur. Hər bir nəzəriyyənin miqrasiyaya özünəməxsus baxışı var: Neoklassik İqtisadiyyat fərdlərin gəlir əldə etmək məqsədilə qərar verdiyini bildirir, Miqrasiya üzrə Yeni İqtisadiyyat ailə qərarlarını, risklərin və əmək bazarında uğursuzluqların qarşısının alınmasını vurğulayır, İkili Əmək Bazarı Nəzəriyyəsi isə miqrasiyanı sənaye cəmiyyətlərindəki əmək tələblərinə bağlayır. Dünya Sistemləri

Nəzəriyyəsi isə beynəlxalq miqrasiyanı qlobal kapitalist sistemin periferiyasında yaranan iqtisadi strukturlarla əlaqələndirir.

Fəslin II paraqrafı "**Beynəlxalq miqrasiya siyasətinin mahiyyəti və xarakteristikası**" adlanır. Bu paraqrafda beynəlxalq miqrasiya siyasətinin mahiyyəti və xarakteristikası araşdırılır. Beynəlxalq miqrasiya siyasəti dünya ölkələri tərəfindən qəbul olunmuş prinsiplər və normalara uyğun olaraq miqrasiya proseslərinin idarə olunmasını nəzərdə tutur. Miqrasiya siyasətinin milli səviyyədə hazırlanması və tətbiqi vacib olsa da, dövlətlərarası miqrasiya axınlarını nizamlayaraq milli maraqları və beynəlxalq əlaqələri balanslaşdıran beynəlxalq miqrasiya siyasəti zəruridir. Daxili miqrasiya amilləri, məsələn, siyasi qeyri-sabitlik, iqtisadi çətinliklər və resurs çatışmazlığı, xarici amillərlə - daha yaxşı iqtisadi imkanlar və siyasi sabitlik axtarışı ilə birləşərək miqrasiyanın beynəlxalq səviyyədə mürəkkəb bir proses olduğunu göstərir. Beynəlxalq miqrasiya siyasəti dinamik və çevik yanaşmalar tələb edir; ölkələrin fərqli tarixi və iqtisadi şəraitinə görə bu siyasətin xüsusiyyətləri heterogen, dinamik və qarşılıqlı əlaqəlidir. Silahlı münaqişələr, iqtisadi böhranlar və təbii fəlakətlər kimi qlobal amillər geniş miqyaslı əhali hərəkətlərinə səbəb olaraq beynəlxalq tədbirlər tələb edir.

Beynəlxalq miqrasiya siyasətinin mahiyyəti və xarakteristikası çərçivəsində Avropa ölkələrinin, xüsusilə Fransa və Almaniyanın miqrasiya siyasəti, həm müsbət, həm də mənfi cəhətləri ilə diqqət çəkir. Fransa miqrasiya siyasətində inteqrasiyanı xüsusilə vurğulasa da, bu siyasət bəzən mədəni müxtəlifliyi zədələdiyi üçün tənqid olunur. Misal üçün, Fransa hökumətinin assimilyasiya yönümlü siyasətləri miqrantların milli kimliyini qorumaq cəhdlərinə mane olur və sosial gərginliklərə səbəb ola bilir. Eyni zamanda, Fransa miqrantların cəmiyyətə uyğunlaşmasını tələb edərkən, onların sosial və iqtisadi hüquqlarının tam təmin edilməsində zəif qalıb. Digər tərəfdən, Almaniya miqrasiya siyasətində işçi qüvvəsinə olan tələbatı ödəmək məqsədilə daha praqmatik yanaşma nümayiş etdirir. Lakin bu yanaşma xüsusən 2015-ci ildə miqrasiya böhranı zamanı resursların qeyri-bərabər paylanması və miqrantların cəmiyyətə

inteqrasiyasında yaranan çətinliklərlə bağlı ciddi tənqidlərə məruz qaldı. Almaniyanın miqrasiya siyasətində insan hüquqlarının qorunması prinsipi nəzərə alınsa da, bəzi hallarda miqrantların sosial təcrid və diskriminasiya ilə üzləşməsi bu siyasətin effektivliyini şübhə altına alır.

I fəslin sonuncu – III paraqrafı "**Beynəlxalq miqrasiya siyasətinin aktorları və onların arasındakı qarşılıqlı əlaqənin təhlili**" adlanır. Bu paraqrafda beynəlxalq miqrasiya siyasətində rol oynayan əsas aktorların - dövlətlər və beynəlxalq təşkilatların fəaliyyətləri və onların qarşılıqlı əlaqələrinin təhlili aparılır. Müasir dünyada beynəlxalq miqrasiya siyasətinin formalaşmasında və icrasında dövlətlər və xüsusi miqrasiya üzrə ixtisaslaşmış beynəlxalq təşkilatlar mühüm rol oynayırlar. Dövlətlər miqrasiya siyasətlərini milli maraqlarına uyğun olaraq müstəqil şəkildə tənzimləsələr də, beynəlxalq səviyyədə qəbul olunmuş konvensiya və müqavilələrə qoşulmaqla miqrasiya siyasətinin beynəlxalq komponentinə inteqrasiya olunur.

İkinci Dünya müharibəsindən sonra dünya miqyaslı miqrasiya proseslərinin effektiv idarə olunması ehtiyacı artmış və bunun nəticəsində bir sıra beynəlxalq təşkilatlar yaradılmışdır. BMT, NATO, Avropa İttifaqı və digər regional təşkilatlar bu sahədə qlobal təhlükəsizliyin təmin edilməsi və miqrasiya axınlarının tənzimlənməsi məqsədilə mühüm rol oynamışlar. Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK) kimi qurumlar, müharibə, təbii fəlakətlər və iqtisadi böhranlar nəticəsində məcburi miqrasiyaya məruz qalan əhaliyə yardım göstərmək üçün təsis edilmişdir.

BMqT və BMT QAK kimi təşkilatlar qaçqınlar və məcburi köçkünlər üçün hüquqi və humanitar dəstək göstərməklə yanaşı, miqrasiya proseslərini idarə etmək üçün beynəlxalq standartların müəyyənləşdirilməsinə də töhfə verirlər. BMqT-in funksiyaları miqrasiya və inkişaf, miqrantlara yardım, miqrasiyanın tənzimlənməsi və məcburi miqrasiya istiqamətlərinə bölünür, bu da miqrasiya proseslərinin kompleksliyini göstərir. Eyni zamanda, BMT QAK qaçqınların və yerdəyişmə edən şəxslərin qorunmasını təmin

edən xüsusi proqramlar həyata keçirir və dünya üzrə miqrasiya problemlərinin həllinə yönəlmiş əməkdaşlıq təşəbbüslərini dəstəkləyir.

Avropa İttifaqı və digər regional qurumlar da miqrasiya axınlarını tənzimləyən siyasətlərin hazırlanmasında və miqrantların hüquqlarının qorunmasında fəal rol oynayırlar. Məsələn, Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (MSİBM) Avropada miqrasiya siyasətlərinin işlənib hazırlanmasında hökumətlərə və təşkilatlara məsləhət və metodoloji dəstək göstərir. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti ilə də əməkdaşlıq edən MSİBM, miqrasiya idarəçiliyi sahəsində ölkəyə xüsusi layihələr və proqramlar vasitəsilə dəstək verir.

Ümumilikdə, beynəlxalq təşkilatlar miqrasiya siyasətinin qlobal və regional səviyyədə tənzimlənməsi üçün dialoq və əməkdaşlıq platformaları təmin edirlər. Dövlətlər beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları arasında əlaqələrin inkişafı, miqrantların hüquqlarının qorunması və insan hüquqlarının təmin olunmasına istiqamətlənmiş qabaqcıl təcrübələrin yayılmasına kömək edir. Bu paraqraf beynəlxalq miqrasiya siyasətinin aktorları arasındakı əlaqələrin qarşılıqlı asılılıq əsasında qurulduğunu və miqrasiyanın idarə edilməsində çoxtərəfli yanaşmaların zəruri olduğunu göstərir.

Dissertasiya işinin "**Beynəlxalq miqrasiya sahəsində cari problemlərin təhlili**" adlanan II fəslində qlobal müharibə və qaçqın problemlərinin miqrasiya proseslərinə təsiri, eləcə də Cənubi Qafqaz regionunda miqrasiya proseslərinin xüsusiyyətləri tədqiq edilmişdir. Fəslin "**Dünyada müharibə ocaqları, qaçqın problemi və ekoloji problemlərin beynəlxalq miqrasiya proseslərinə təsiri**" adlanan I paraqrafında qeyd olunur ki, beynəlxalq miqrasiya idarəetməsi qloballaşmanın, iqlim dəyişikliyinin və münaqişələrin yaratdığı miqrasiya təzyiqlərinə cavab olaraq getdikcə daha mürəkkəb və əhatəli siyasətlər tələb edir. Bu siyasət insanların miqrasiya səbəblərinin çoxşaxəli olduğunu və onların ölkələrə təsirinin müxtəlif yönləri əhatə etdiyini nəzərə almalıdır. Lakin hazırkı idarəetmə

mexanizmləri bir sıra problemlərlə üzləşir ki, bunlar da miqrasiya proseslərinin daha effektiv şəkildə idarə olunmasına mane olur.

Beynəlxalq miqrasiya idarəetməsində hüquqi tənzimləmələrin ahəngdar olmaması və resurs çatışmazlığı kimi problemlər aktualdır. Miqrasiya ilə bağlı beynəlxalq razılaşmalar olsa da, ölkələr arasında koordinasiya çətinlikləri var; bəzi ölkələr sərt immiqrasiya siyasətlərinə üstünlük verərkən, digərləri miqrantların hüquqlarını qorumağa yönəlir. Bu uyğunsuzluqlar, vahid qlobal yanaşmanın qurulmasını çətinləşdirir.

Miqrasiya idarəetməsində təkmilləşdirilmiş siyasətin tətbiqi üçün ölkələr arasında daha ahəngdar hüquqi çərçivələrin yaradılması və qlobal əməkdaşlığın gücləndirilməsi vacibdir. BMT və IOM kimi qurumlar bu sahədə liderlik edə bilər. Resurs çatışmazlığını aradan qaldırmaq üçün donor dəstəyi və effektiv xidmətlərin təmin olunması önəmlidir. Ətraf mühitin deqradasiyası səbəbilə məcburi köç edən ekoloji miqrantların hüquqlarının qorunması və sosial inteqrasiyanı dəstəkləyən proqramların tətbiqi isə daha dayanıqlı cəmiyyətlərə töhfə verə bilər.

Bu fəslin II paraqrafı "**Regional miqrasiya prosesləri və Cənubi Qafqaz**" adlanır. Bu paraqrafda müəllif qeyd edir ki, Cənubi Qafqaz regionunda ekoloji problemlər və geosiyasi təlatümlər miqrasiya dinamikasına güclü təsir göstərir. Metsamor Atom Elektrik Stansiyasında baş verə biləcək hər hansı qəzanın yaratdığı radiasiya, su çirklənməsi və torpaq deqradasiyası regionda həm daxili, həm də transsərhəd miqrasiya proseslərinə səbəb ola bilər. Metsamor AES-nin köhnəlmiş texnologiyası, mümkün radiasiya sızıntısı təhlükəsi yalnız Ermənistana deyil, həm də qonşu Azərbaycan və Gürcüstan üçün ciddi humanitar və ekoloji fəsadlar yarada bilər. Bu cür təhlükələr insanları yaşadıqları yerləri tərk etməyə məcbur edə bilər, əhali arasında məcburi miqrasiya hallarının artmasına səbəb ola bilər.

Quraqlıq və iqlim dəyişikliyi xüsusən kənd təsərrüfatına böyük əhəmiyyət verən ölkələrdə əhalinin dolanışığını və yaşam şəraitini çətinləşdirir. Su ehtiyatlarının azalması və kənd təsərrüfatının məhsuldarlığının düşməsi regionda resurs çatışmazlığına və gəlir azalmasına səbəb olur, bu isə öz növbəsində

miqrasiya meyllərini gücləndirir. Ermənistanın sənaye tullantıları ilə çayları çirkləndirməsi və Cənubi Qafqazın torpaq deqradasiyası kimi problemlər də əhali arasında məcburi miqrasiyanı sürətləndirir.

Geosiyasi baxımdan, Cənubi Qafqaz regionunun Avropa, Asiya və Yaxın Şərqin kəsişməsində yerləşməsi onu mühüm miqrasiya marşrutu kimi önə çıxarır. Əfqanıstan, İran və Suriyadan gələn miqrantlar üçün region həm tranzit keçid, həm də sığınacaq yeri kimi çıxış edir. Eyni zamanda, Türkiyə Suriyadan gələn qaçqınların axını ilə üzləşərək, regionda miqrasiya proseslərinin idarə olunmasında mühüm rol oynayır. Bu axınlar Türkiyənin resursları və infrastrukturu üzərində təzyiq yaradır, lakin ölkə Suriyalı qaçqınların cəmiyyətə inteqrasiyası üçün müxtəlif siyasətlər tətbiq edir.

Son illərdə Rusiya-Ukrayna münaqişəsi nəticəsində rusiyalı miqrantların Ermənistana köçü, həmçinin Ermənistanın İT sektoruna inteqrasiyası diqqət çəkir. Rusiya ilə Ermənistan arasındakı tarixi, mədəni və dini əlaqələr ruslar üçün Ermənistanı cəlbedici edir. Bundan başqa, digər siyasi-iqtisadi faktorlar da burada böyük rol oynayır. Bu miqrasiya axını regionun demoqrafik və iqtisadi mənzərəsini dəyişdirir, Ermənistanın daşınmaz əmlak bazarına və yerli bazarlara təzyiq yaradır.

Eyni zamanda, dil faktoru Cənubi Qafqazdan Rusiyaya və Türkiyəyə əmək miqrasiyasında əhəmiyyətli rol oynayır. Regionun əhalisinin rus və türk dillərinə bələd olması onların bu ölkələrin əmək bazarlarına inteqrasiyasını asanlaşdırır və miqrasiya axınlarını gücləndirir. Bu, Cənubi Qafqazdan olan insanların sosial-iqtisadi imkanlarını artırır və Rusiya və Türkiyə əmək bazarlarında uğurlu inteqrasiyasını təmin edir.

Təhsil miqrasiyası da Cənubi Qafqazda miqrasiya proseslərinə təsir göstərir. Azərbaycanlı tələbələrin Türkiyə universitetlərinə axını, xüsusilə iki ölkə arasındakı mədəni və tarixi bağları əks etdirir. Türkiyədə təhsil alan tələbələrin sayı artmaqdadır ki, bu da təhsil perspektivlərinin regional miqrasiyaya təsirini göstərir. Statistikaya görə, hazırda 41 minə yaxın azərbaycanlı tələbə xaricdə təhsil alır, bu isə beynəlxalq təhsilə artan tələbatı əks etdirir.

Fəslin III paraqrafı "**Azərbaycan Respublikasında miqrasiya siyasətinin formalaşmasını şərtləndirən amillərin təhlili**" adlanır. Bu paraqrafda vurğulanır ki, ölkənin zəngin neft və qaz ehtiyatları iqtisadi inkişafı gücləndirmiş və xarici işçi qüvvəsinin cəlbini artırmışdır. Bu inkişaf əmək miqrasiyasına dair siyasətlərin təkmilləşdirilməsini və miqrant işçilərin hüquqlarının qorunmasını da önə çıxarmışdır. Azərbaycanın demoqrafik vəziyyəti, xüsusilə gənc və orta yaşlı əhalinin üstünlük təşkil etməsi, işçi qüvvəsinə olan tələbatı artırır və həm daxili, həm də beynəlxalq miqrasiya axınlarının tənzimlənməsi ehtiyacını gündəmə gətirir. Kənd yerlərindən şəhərlərə doğru daxili miqrasiya axınları şəhər infrastrukturu üzərində təzyiq yaradır, bu da miqrasiya siyasətində uyğun dəyişikliklərin edilməsini zəruri edir. Əmək bazarının tələbatı isə xarici işçilərin, xüsusilə də tikinti və sənaye sahələrində cəlb olunmasını tələb edir. Peşəkar kadrlara ehtiyacın ödənilməsi məqsədilə miqrasiya siyasəti ixtisaslı mütəxəssislərin cəlbini asanlaşdırır və yerli iqtisadi inkişaf üçün əhəmiyyətli bir faktor kimi çıxış edir.

Beynəlxalq əməkdaşlıq Azərbaycanın miqrasiya siyasətində mühüm rol oynayır. Ölkə, miqrantların hüquqlarının qorunması və miqrasiya axınlarının tənzimlənməsi sahəsində BMT və Beynəlxalq Miqrasiya Təşkilatı kimi qurumlarla sıx əməkdaşlıq edir. Azərbaycan müstəqilliyinin ilk illərindən qaçqın və məcburi köçkün məsələlərini həll etmək üçün beynəlxalq hüquq normalarına uyğun addımlar atmış və miqrasiya proseslərində beynəlxalq standartları tətbiq etməyə çalışmışdır. Dövlət Miqrasiya Xidmətinin yaradılması isə miqrasiya siyasətinin effektiv həyata keçirilməsini təmin etmiş və qanunsuz miqrasiyanın qarşısının alınmasında əhəmiyyətli rol oynamışdır.

Son illərdə turizm sektorunda aparılan islahatlar ölkəyə miqrant axınını artırmaqla yanaşı, turizmin inkişafı üçün əlverişli şərait yaratmışdır. Turizm infrastrukturunun inkişafı, Dövlət Turizm Agentliyinin yaradılması və regional turizm obyektlərinin qurulması Azərbaycana gələn xarici ziyarətçilərin sayını artıraraq, ölkənin iqtisadi inkişafına müsbət təsir göstərmişdir. Beləliklə, Azərbaycan Respublikasında miqrasiya siyasətinin formalaşması kompleks

amillərə əsaslanaraq ölkənin milli maraqlarını və təhlükəsizliyini təmin edən mühüm bir mexanizm kimi çıxış edir.

"**Azərbaycan Respublikasında miqrasiya beynəlxalq miqrasiya proseslərinin tərkib hissəsi kimi**" adlanan III fəsildə Azərbaycanın miqrasiya siyasətinin beynəlxalq miqrasiya prosesləri ilə əlaqələndirilməsi və milli təhlükəsizlik çərçivəsində təhlili aparılmışdır. Fəslin I paraqrafı "**Azərbaycan Respublikasının miqrasiya siyasətinin hüquqi-normativ bazasının beynəlxalq miqrasiya siyasətinə uyğunlaşdırılması**" adlanır. Bu paraqrafda bildirilir ki, Azərbaycan Respublikasının miqrasiya siyasətinin hüquqi-normativ bazasının formalaşması prosesinə nəzər saldıqda, müstəqilliyin ilk illərindən etibarən ölkədə miqrasiya qanunvericiliyinin təkamül yolu ilə inkişaf etdiyi görünür. Azərbaycanın miqrasiya siyasətinin hüquqi əsasları Konstitusiya ilə başlanır. 1995-ci ildə qəbul olunmuş Konstitusiyada əcnəbilərin hüquqları, vətəndaşlıq hüququ və siyasi sığınacaq kimi miqrasiya ilə bağlı əsas prinsiplər təsbit edilmişdir. Bu prinsiplər miqrasiya siyasətinin hüquqi çərçivəsinin əsasını təşkil edir və miqrasiya qanunvericiliyinin gələcək inkişafı üçün baza rolunu oynayır.

Azərbaycan miqrasiya proseslərini tənzimləyərkən, beynəlxalq təşkilatlar və əməkdaşlıq çərçivəsində BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, Beynəlxalq Əmək Təşkilatı və MDB kimi qurumlarla əlaqələrini gücləndirmişdir. Bu dövrdə miqrasiya qanunvericiliyinin təməlini təşkil edən bir sıra mühüm qanunlar qəbul edilmişdir, məsələn, "Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" və "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" qanunlar miqrasiya proseslərinin hüquqi-normativ bazasını möhkəmləndirən sənədlərdən olmuşdur. 2004-cü ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dövlət Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyasını" təsdiq etdi ki, bu da miqrasiya qanunvericiliyinin təkmilləşdirilməsi və dövlət nəzarətinin gücləndirilməsi kimi tədbirləri ehtiva edirdi. 2007-ci ildə Dövlət Miqrasiya Xidmətinin yaradılması ilə miqrasiya prosesləri mərkəzləşdirildi və xidmətin səlahiyyətlərinə miqrantların qeydiyyatını və ölkədə qanuni yaşayış prosedurlarının

sadələşdirilməsini təmin etmək kimi mühüm vəzifələr daxil edildi. Bu islahatlar nəticəsində "bir pəncərə" prinsipi tətbiq edilərək miqrasiya idarəçiliyi daha effektiv hala gətirildi. 2013-cü ildə qəbul edilən Miqrasiya Məcəlləsi isə Azərbaycanın miqrasiya siyasətində yeni bir mərhələ yaratdı. Məcəllədə miqrasiya ilə bağlı əsas anlayışlar, miqrasiya proseslərinin hüquqi tənzimlənməsi və iştirakçıların hüquq və vəzifələri geniş şəkildə təsbit olunmuşdur. Bu sənəd Azərbaycanın MDB məkanında miqrasiya qanunvericiliyinin sistemli şəkildə tənzimlənməsi istiqamətində ilk addımı olmuşdur.

Azərbaycanın miqrasiya siyasətinin hüquqi-normativ bazasının formalaşması ilə ölkə milli təhlükəsizlik, ictimai-siyasi sabitlik və insan hüquqlarının qorunması istiqamətində mühüm addımlar atmışdır. Bu çərçivə qloballaşan dünyada baş verən miqrasiya axınlarını idarə etmək və yarana biləcək təhlükələrə çevik cavab vermək üçün müasir standartlara cavab verən bir sistem olaraq formalaşmışdır.

Fəslin II paraqrafı "**Azərbaycan Respublikasının miqrasiya siyasəti milli təhlükəsizlik kontekstində**" adlanır. Bu paraqrafda Azərbaycan Respublikasının milli təhlükəsizlik strategiyasında miqrasiya siyasəti araşdırılır. Dövlət müstəqilliyini bərpa etdikdən sonra həm qlobal, həm də regional kontekstdə miqrasiya proseslərinin milli təhlükəsizlik üçün ciddi nəticələr doğura biləcəyi anlaşıldı. Bu məsələyə diqqətin artırılmasının səbəbi qlobal iqtisadiyyatın, əmək bazarının tələblərinin və coğrafi şəraitin təsirləri nəticəsində yaranan miqrasiya axınlarının ölkənin iqtisadi və sosial strukturunda yaratdığı dəyişikliklərlə bağlıdır.

Müəllif burada qeyd edir ki, Azərbaycanın miqrasiya siyasətini Dünya Sistemləri Nəzəriyyəsi ilə izah etmək daha məqsədəuyğundur, çünki bu nəzəriyyə qloballaşmanın yaratdığı miqrasiya proseslərinin iqtisadi və sosial təməllərini əhatəli şəkildə təqdim edir. Bu nəzəriyyəyə əsasən, iqtisadi cəhətdən asılı vəziyyətdə olan inkişaf etməkdə olan ölkələrdə miqrasiya axınları kapitalist bazarının genişlənməsi ilə artır. Azərbaycanın əmək bazarındakı tələb və iqtisadi çətinliklər səbəbindən, əhalinin bir

hissəsinin xarici ölkələrə miqrasiya etməsi Dünya Sistemləri Nəzəriyyəsinin Azərbaycan kontekstinə uyğun olduğunu göstərir.

Miqrasiya siyasətinin formalaşmasında milli təhlükəsizliyə təsir edən amillərdən biri, Azərbaycanın yerləşdiyi strateji coğrafi mövqedir. Ölkənin, regionda münaqişələrin təsiri altında olması miqrasiyanı milli təhlükəsizlik üçün strateji məsələyə çevirir. Son illərdə Azərbaycanın miqrasiya siyasətində beynəlxalq əməkdaşlıq da diqqətəlayiqdir. Bu əməkdaşlıq çərçivəsində BMT, Beynəlxalq Miqrasiya Təşkilatı və Avropa İttifaqı ilə miqrasiya idarəçiliyi sahəsində sıx əlaqələr qurulmuşdur. Bu təşkilatlarla olan əməkdaşlıq Azərbaycanın miqrasiya siyasətini beynəlxalq standartlara uyğunlaşdırmağa və milli təhlükəsizliyi təmin etməyə yönəlmişdir. Xarici miqrasiyada qanunsuz miqrasiya, insan alveri və terrorizmlə mübarizə, milli təhlükəsizliyin əsas tərkib hissəsi hesab olunur. Dövlət Miqrasiya Xidməti və digər hüquq mühafizə orqanlarının birgə fəaliyyəti sayəsində qanunsuz miqrantların aşkarlanması və ölkə ərazisində hərəkətlərinə nəzarət gücləndirilmişdir. Vahid Miqrasiya Məlumat Sistemi vasitəsilə miqrantların ölkə daxilində hərəkətlərinin izlənilməsi və təhlükəsizlik tədbirlərinin artırılması təmin edilmişdir.

Fəslin III paraqrafı "**Dinamik beynəlxalq miqrasiya proseslərində Azərbaycan Respublikasının fəaliyyəti**" adlanır. Bu paraqrafda deyilir ki, Azərbaycan Respublikasının miqrasiya siyasəti qlobal miqrasiya proseslərindən təsirlənərək, ölkənin milli təhlükəsizlik və sosial-iqtisadi maraqlarına uyğun şəkildə formalaşdırılmışdır. COVID-19 pandemiyası dövründə beynəlxalq miqrasiya axınlarında ciddi azalmalar müşahidə olunmuş, Azərbaycanda da bu vəziyyətin təsirləri nəzərə çarpacaq dərəcədə hiss olunmuşdur. DMX, pandemiya dövründə miqrasiya axınlarını idarə etmək və miqrantların sosial hüquqlarını qorumaq üçün qabaqlayıcı tədbirlər həyata keçirmişdir. Pandemiya həm də ölkədə miqrantların qeydiyyatı, müvəqqəti və daimi yaşamaq icazələrinin verilməsi kimi prosedurların rəqəmsallaşdırılması və sadələşdirilməsinə səbəb olmuşdur.

Həmçinin vurğulanır ki, son illərdə Azərbaycanda həyata keçirilən Böyük Qayıdış siyasəti, Qarabağa və işğaldan azad edilmiş ərazilərə məcburi köçkünlərin qayıdışını dəstəkləyən bir repatriasiya təşəbbüsüdür. Bu siyasət çərçivəsində geri qayıdan məcburi köçkünlər üçün təhlükəsiz mühitin yaradılması, infrastrukturun inkişaf etdirilməsi və sosial-iqtisadi adaptasiya prosesləri nəzərdə tutulur.

Azərbaycanın miqrasiya siyasətində geosiyasi faktorlar da mühüm rol oynayır. Rusiya-Ukrayna münaqişəsi və Avropa İttifaqının Rusiyaya qarşı sanksiyaları bölgədə miqrasiya dinamikasına təsir göstərmiş, Azərbaycanın həm tranzit ölkə, həm də təyinat ölkəsi kimi miqrasiya proseslərində iştirakını artırmışdır. Azərbaycan, miqrantların könüllü qayıdışını və onların doğma torpaqlarında yenidən məskunlaşmasını təşviq edən bir yanaşma ilə regionda təhlükəsizliyin təminatçısı rolunu oynamağa davam edir.

Tədqiqatın "**Nəticə**" hissəsində müəllif vurğulayır ki, Azərbaycanın miqrasiya siyasəti ölkənin beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirmək, multikulturalizmi və ksenofobiyasız mühiti ilə əcnəbilər üçün cəlbedici olmaq üzərində qurulmuşdur. Müasir hüquqi-normativ baza vasitəsilə miqrasiya prosesləri və milli təhlükəsizlik təmin edilir. Qarabağda Böyük Qayıdış proqramı daxili miqrasiyanı tənzimləyərək sosial-iqtisadi inkişafı gücləndirir. Eyni zamanda, regional təhsil mərkəzlərinin inkişafı və urbanizasiya problemlərinin həlli üçün yeni addımlar atılır, ixtisaslı əmək miqrasiyasının təşviqi planlaşdırılır, həmçinin, Ermənistanla sülh perspektivləri miqrasiya sahəsində yeni imkanlar yarada bilər. "Nəticə" hissəsində həmçinin əldə edilmiş nəticələr əsasında müvafiq tövsiyələr də verilmişdir.

## Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində dərc edilmişdir:


1. Azərbaycan Respublikasının Miqrasiya məcəlləsi: əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının müdafiəsi //

"Azərbaycan Respublikasında Miqrasiya siyasəti və insan hüquqları". – Bakı: 2014. – s.62-63
2. History of migration processes in the Republic of Azerbaijan // Baku World Youth Forum of Young Scientists. – Bakı: 2014. – s.58-59
3. Azərbaycanda miqrasiya prosesləri və əhalinin yerdəyişməsi // Dövlət İdarəçiliyi. – Bakı: 2014. – № 3/47. – s.235-242
4. Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyi // Strateji təhlil. – Bakı: 2014. – № 4/11. – s.83-94
5. Heydər Əliyev və Azərbaycan Respublikasının miqrasiya siyasəti // "Heydər Əliyev Azərbaycanın milli dövlətçilik siyasətinin banisidir". – Bakı: 2014. – s.84-91
6. Azərbaycan Respublikasının miqrasiya siyasəti: beynəlxalq və ikitərəfli əməkdaşlıq // Dövlət İdarəçiliyi. – Bakı: 2015. – № 3/51. – s.271-280
7. Azərbaycan Respublikasının miqrasiya siyasəti: beynəlxalq və ikitərəfli əməkdaşlıq // Gənc Alimlərin əsərləri. – Bakı: 2015. – № 11. – s.295-301
8. Müasir miqrasiya nəzəriyyələri: tarixi baxış // Gənc Alimlərin əsərləri. – Bakı: 2015. – № 12. – s.166-171
9. International Migration policy and Azerbaijan // Proceedings of Young Scientists. – Bakı: 2016. – № 14. – s.203-211
10. International migration policy: essence and content // Гилея. – Kiyev: 2016. – № 114/11. – s.288-292
11. Azərbaycan Respublikasının miqrasiya siyasəti milli təhlükəsizlik kontekstində // Strateji təhlil. – Bakı: 2016. – № 1-2/15-16. – s.205-217
12. Beynəlxalq miqrasiya siyasətində Azərbaycanın yeri // "Azərbaycanşünaslığın aktual problemləri" VIII Beynəlxalq elmi konfransı. – Bakı Dövlət Universiteti. – Bakı: 2017. – s.161-163
13. Qloballaşan dünyada miqrasiya siyasəti: mahiyyəti və məzmunu // "Azərbaycanda miqrasiya siyasəti". – Bakı: 2017. – s.33-37

14. Miqrasiya siyasəti və Multikulturalizm // Doktorant və dissertantların elmi konfransı. – Bakı: 2021. – s.115-123
15. Pandemiya dövründə Azərbaycanda miqrasiya prosesləri // VI Uluslararası Avrupa Sosyal Bilimler Kongresi. – Kiyev: 2021. – s.35-43

Dissertasiyanın müdafiəsi "26" dekabr 2024-cü il tarixində saat 11 -da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi 4.

Dissertasiya ilə Dövlət İdraəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "26" noyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.11.2024
Kağızın formatı: A5

Həcmi: 42201
Tiraj: 100